**Əmanətlərlə bağlı müraciət edənlərin sayında azalma müşahidə olunur**

Azərbaycan Respublikası Prezidentinin «Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında» fərmanına uyğun olaraq, cari ilin iyun ayının 1-dən etibarən «Kapital Bank» ASC-nin xidmət məntəqələrində fərdi birdəfəlik ödəmələrin verilməsi davam etdirilir. İndiyədək verilmiş əmanətlər və işin gedişatı haqqında məlumatların verilməsi məqsədilə sentyabrın 4-də «Kapital Bank»ın idarə heyəti sədrinin müavini Araz Əliyev mətbuat konfransı keçirmişdir.

A.Əliyev bildirmişdir ki, sentyabrın 1-dək bankın yerli filial və məntəqələrinə 731 min 303 müraciət daxil olmuşdur ki, bunlardan da 688 min 785-nə baxılmışdır. İndiyədək müraciətlər üzrə 63 min 263 sənədə ödəmə icazəsi, 59 min 263-nə rədd cavabı verilmişdir. Yerdə qalan sənədlər üzrə araşdırmalar davam etdirilir. Müsbət cavab alan sənədlər üzrə ödəmələr isə 263 milyon 702 min 828,18 manat təşkil edir.

İdarə heyəti sədrinin müavini qeyd etmişdir ki, əgər prosesin başladığı ilk aylarda gün ərzində müraciət edənlərin sayı 14-15 min nəfər idisə, indi bu rəqəm 12-13 minə düşmüşdür. Bu da əhalinin daha məlumatlı olması ilə əlaqələndirilir. Belə ki, ödəmələr 2013-cü ilin son gününədək davam edəcəkdir.

Vurğulanmışdır ki, yaranan problemlər daha çox vərəsəlik məsələləri ilə bağlı olur. Hər bir problemli sənəd araşdırılması üçün aidiyyəti quruma göndərilir, bankın mərkəzləşdirilmiş kompüter sistemində yoxlanılır. Bir neçə əmanət kitabçası olan şəxslərin vəsaitləri birləşdirilir və bir dəfəyə ödənilir. İtmiş kitabçalar üzrə 13 min 900 müraciət olmuş, 3 mininin vəsatəti qəbul olunaraq ödəmə həyata keçirilmişdir.

Məbləğlərin hesablanma qaydası üzrə xüsusi broşürlər hazırlanmış və müraciət edən vətəndaşlara paylanmaqdadır.